# Lider andı, Qarabağ təntənəsi, sürətli quruculuq, Böyük Qayıdış



***2008**-ci il oktyabrın 24-də cənab İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti kimi and içdi. Bu mərasim ölkə başçımızın ilk prezidentlik dövrünün uğurlarının təsdiqi və ölkəni gələcək hədəflərə yönəldən mühüm mərhələ olaraq tarixdə qaldı. Prezident həmin andiçmə nitqində Azərbaycanın gələcək inkişaf istiqamətlərini vurğuladı, sosial-iqtisadi sahədə islahatları davam etdirmək, müstəqil xarici siyasət yürütmək və Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq kimi əsas məqsədləri bəyan etdi.*

Qeyd edək ki, seçkilər ölkədə həm daxili siyasət sahəsində sabitliyi, həm də Prezidentin apardığı siyasi kursun xalq tərəfindən geniş dəstəkləndiyini göstərən bir sınaq oldu. Cənab İlham Əliyev seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi kimi iştirak edirdi və onun əsas rəqibləri arasında digər siyasi partiyaların nümayəndələri olsa da, ölkə başçısı xalqın dəstəyi ilə mütləq qələbə qazandı. Seçkilər ölkənin siyasi sisteminin gücünü və ictimai dəstəyi nümayiş etdirdi. Seçkilərin rəsmi nəticələrinə görə, cənab İlham Əliyev seçicilərin böyük əksəriyyətinin - 88.73 faizinin səsini qazandı. Bu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi sosial-iqtisadi islahatların və xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönələn siyasətinə geniş ictimai dəstək idi.

2008-ci il seçkiləri beynəlxalq müşahidəçilər tərəfindən də izlənildi. Seçki prosesi, o cümlədən seçkiqabağı kampaniya və seçki günü prosedurları beynəlxalq standartlara uyğun həyata keçirildi. Müşahidəçilərin çoxu seçkilərin texniki cəhətdən yaxşı təşkil olunduğunu və səsvermənin əsasən şəffaf keçdiyini vurğuladılar. Bu, ölkədə demokratik seçki sisteminin inkişafına işarə idi.

Cənab İlham Əliyevin seçkilərdə bu qədər yüksək dəstək qazanmasının əsas səbəblərindən biri ölkə başçımızın prezidentliyinin ilk dövründə həyata keçirdiyi uğurlu iqtisadi və sosial islahatlar, həmçinin Azərbaycanın beynəlxalq arenada mövqeyinin güclənməsi idi. Dövlət başçısı 2003-cü ildən etibarən Azərbaycanı Cənubi Qafqaz regionunun ən güclü iqtisadiyyatına sahib ölkəyə çevirmişdi və bu, xalqın rifahını əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdı. Ölkədə yoxsulluq səviyyəsi azalmış, geniş miqyasda infrastruktur layihələri həyata keçirilmiş, işsizlik azalmış, sosial rifah və yaşayış tərzi yüksəlmişdi.

"Beş il bundan əvvəl andiçmə mərasimində mən Azərbaycan xalqına söz vermişdim ki, Azərbaycanın hərtərəfli inkişafı üçün fəal çalışacağam. Söz vermişdim ki, Azərbaycanda Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çünki bu, Azərbaycanın bu günü və sabahı üçün, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasət Azərbaycanı böyük bəlalardan qurtardı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir". Cənab Prezidentin andiçmə mərasimində söylədiyi bu sözlər müstəqil Azərbaycanın keçmiş və gələcəyinin simvolu idi. Ölkə başçısı ümummilli lider Heydər Əliyevin tutduğu yolu öz dərin analitik siyasi gedişləri ilə sintez edərək müasir Azərbaycanı formalaşdırdı. Ulu öndər Heydər Əliyevin hədəfləri, qarşıya qoyulan vəzifələr onun siyasi varisi cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirildi, ata vəsiyyəti icra olundu.

Cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2008-ci illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etdi. Ölkənin Ümumi Daxili Məhsulu (ÜDM) illik olaraq 20 faizdən çox artdı. Bu, əsasən enerji sektorunun inkişafı və neft gəlirlərinin düzgün idarə edilməsi ilə əlaqədar idi. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin istifadəyə verilməsi Azərbaycanı beynəlxalq enerji bazarında strateji tərəfdaşa çevirdi. Bu dövrdə ölkədə infrastruktur layihələri genişləndi, sosial rifah proqramları həyata keçirildi və yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azaldı. Digər tərəfdən, Prezident İlham Əliyev ilk prezidentlik dövründə balanslı və müstəqil xarici siyasət yürüdərək Azərbaycanı Cənubi Qafqazın inkişaf edən ölkəsinə çevirdi. Ölkə başçısı Rusiya, Qərb və qonşu ölkələrlə strateji tərəfdaşlığı möhkəmləndirərək Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirdi. Bu dövrdə ölkəmizin Avropa və Asiya qitələri arasında enerji və nəqliyyat əlaqələrində oynadığı rol artırıldı.

İlk prezidentlik dövründə cənab İlham Əliyev Azərbaycan Ordusunun modernləşdirilməsi və hərbi gücün artırılması istiqamətində də geniş islahatlar həyata keçirdi. Müdafiə xərcləri əhəmiyyətli dərəcədə artdı və Qarabağın işğaldan azad edilməsində əsas amillərdən biri oldu.

Prezident İlham Əliyev sosial-iqtisadi sahədə geniş islahatlarla yanaşı, demokratik idarəetmənin təkmilləşdirilməsi, qanunların möhkəmləndirilməsi və insan hüquqlarının qorunmasına xüsusi diqqət yetirdi. O, ölkənin gələcək inkişafı üçün təhsilin və insan kapitalının inkişafına da böyük sərmayə cəlb etdi.

"Beş il bundan əvvəl mən Azərbaycan xalqına söz vermişdim ki, 5 il ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq və çox şadam ki, biz buna nəinki 5 il, hətta 4 il müddətində nail ola bilmişik". Ən böyük problemlərdən olan 1 milyon qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi və onlara qayğı cənab İlham Əliyevin ən çox diqqət ayırdığı məsələlərdən biri olub. Onun rəhbərliyi altında 2004-cü il iyulun 1-də qəbul edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ölkənin sosial sahədəki prioritetlərindən biri oldu. Bu proqram çərçivəsində əsas hədəf, illərlə çətin şəraitdə yaşayan məcburi köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq idi. Dövlətimizin başçısı bu proqramın icrasına xüsusi önəm verərək, onun qısa müddətdə uğurla həyata keçirilməsini təmin etdi. Prezidentin qeyd etdiyi kimi, bu proqramın icrası ilə 12 çadır şəhərciyi ləğv olundu və onların yerinə 36 yeni qəsəbə salındı. Bu qəsəbələrdə məcburi köçkünlər üçün müasir yaşayış evləri, məktəblər, tibb məntəqələri və digər sosial obyektlər tikildi. Göstərilən bu diqqət və qayğı məcburi köçkünləri daha da ruhlandırmış, gələcəyə, torpaqlarımızın işğaldan azad edilməsinə olan inamı daha da artırmışdı. Məhz bunun məntiqi nəticəsi olaraq ötən əsrin sonlarında öz doğma yurd-yuvalarından didərgin düşmüş insanlar bu gün mərhələli şəkildə Qarabağa qayıtmağın sevincini yaşayır, hər dəfə də cənab Prezidentə öz minnətdarlıqlarını bildirirlər.

Andiçmə nitqində Prezident İlham Əliyev ölkənin strateji hədəflərini açıqladı, iqtisadi artımın davam etdirilməsi, ölkəmizin müstəqil və balanslı xarici siyasət kursunun qorunması və Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində ədalətli həlli kimi prioritetləri elan etdi. Ölkə başçısı Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması siyasi kursun əsas prioritetlərindən olduğunu bildirdi. Məhz bugünkü reallıqlar və Azərbaycanın əldə etdiyi uğurlar bir növ cənab Prezidentin andiçmə nitqində söylədiyi fikirlərin real təsdiqidir və Qarabağ münaqişəsinin həllinə dair siyasəti 2020-ci ildə öz nəticəsini verdi. 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmiz Qarabağın əhəmiyyətli hissəsini işğaldan azad etdi və Ermənistanın kapitulyasiya aktı ilə münaqişənin hərbi fazası sona çatdı. Bu, cənab İlham Əliyevin həm daxili siyasətdə güclü idarəetmənin, həm də xarici siyasətdə çevik yanaşmanın nəticəsi oldu. Ölkə başçımız xarici siyasətdə misilsiz uğurlara imza atıb. Cənab İlham Əliyev Azərbaycanın müstəqil və balanslı xarici siyasətini davam etdirərək bu gün beynəlxalq münasibətlərdə ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edir, regional və qlobal əməkdaşlıqda ölkəmizin mövqeyini gücləndirir.

Qarabağın azad edilməsindən sonra ölkə başçısı diqqətini işğaldan azad edilmiş ərazilərin bərpasına yönəldib. Bu bölgələrin yenidən qurulması və sosial-iqtisadi infrastrukturunun inkişafı Azərbaycanın daxili siyasətinin əsas prioritetlərindən biridir. Bu dövrdə qeyri-neft sektorunun inkişafı da iqtisadi şaxələnmə üçün vacib addımlardan biri kimi diqqət mərkəzindədir. Müharibədən sonra Ordumuz daha da gücləndirilib, yeni texnologiyalar və silah sistemləri ilə təchiz olunub. Ordunun peşəkarlığı artırılaraq regionda ən güclü ordulardan birinə çevrilib.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**